BUDAQ TƏHMƏZ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ



Deməyin ki, bir ağacda budağam,
Ötən bülbül, dinən diləm, dodağam.
Məndən sonra bircə misram yaşarsa,
Ölməmişəm, demək onda mən sağam.

BUDAQ TƏHMƏZ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

*Bakı*
*"Araz"-2010*

## OLMAZ

***Məhəmməd Füzulinin 500 illiyinə***

Sən qəzəl aləminin incə qəzəlxanısan,
Hikmətli söz mülkünün gövhərisən, kanısan.
Məcnun elə özünsən, sən eşqin sultanısan,
Canı canan diləsə, dedin verməmək olmaz.

Həyatın ləzzətini eşqin özündə gördün,
Leylinin surətini Məcnun gözündə gördün.
Dünyanın gərdişini özün özündə gördün,
Haqqı nahaq tapdasa, dedin, görməmək olmaz.

Yatmış qara baxtını söz mülkünlə oyatdın
Bir Məcnun harayıyla eşqin taxtına çatdın.
Leylinin nisgilini «Şəbu Hicran»a qatdın,
Dedin, yanar könlümdən çələng hörməsəm olmaz.

***14.09.1994***